Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

**Elektron alış aktının forması, tətbiqi, uçotu və istifadəsi haqqında**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi ödəyicisi vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün sənədləşdirilmiş məlumat əsasında gəlirlərinin və xərclərinin vaxtlı-vaxtında dəqiq uçotunu aparmağa, tətbiq edilən uçot metodundan asılı olaraq gəlirlərini və xərclərini onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid etməyə borcludur.

Bəzi hallarda vergi ödəyicisi malları vergi orqanında uçotda olmayan şəxslərdən əldə edir. Bu cür mallar alındıqda alınmış mallara görə alış aktları və malların alışı tarixindən 5 gün müddətində elektron alış aktı tərtib edilməlidir.

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 07.07.2020-ci il tarixli 243 nömrəli Qərarı ilə “Elektron alış aktı”nın forması və “Elektron alış aktının tətbiqi, uçotu və istifadəsi Qaydaları” təsdiq edilib.

Qaydalara əsasən elektron alış aktı vergi ödəyicisi tərəfindən vergi orqanında uçotda olmayan fiziki şəxsdən malların alışı zamanı elektron formada tərtib edilməklə hazırlanan və təsdiq edilən ilkin uçot sənədi hesab edilir. Qaydalara uyğun tərtib edilməyən elektron alış aktı mal alışının rəsmiləşdirilməsinə əsas verməyəcəkdir.

Elektron alış aktı malı alan vergi ödəyicisi tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin *İnternet Vergi İdarəsi portalında* yaradılmış *“elektron alış aktı” altsistemində* Azərbaycan dilində hazırlanır. Vergi ödəyicisi İnternet Vergi İdarəsinə daxil olaraq elektron alış aktını hazırlayandan sonra, onu gücləndirilmiş elektron imza vasitəsilə imzalayaraq təsdiq edir.

Elektron alış aktında elektron alış aktının seriyası, nömrəsi və verilməsi tarixi, elektron alış aktının növü (cari/düzəliş/ləğv), satıcının soyadı, adı və atasının adı, şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi, FİN kodu, əlaqə nömrəsi, vergi ödəyicisinin tam adı və eyniləşdirmə nömrəsi (VÖEN), kağız daşıyıcıda tərtib edilmiş alış aktının seriyası, nömrəsi və tarixi, sıra nömrəsi, malın adı, malın ölçü vahidi, malın miqdarı, malın vahidinin qiyməti (manatla), malın məbləği (manatla), sair qeydlər, yekun məbləğ (rəqəm və yazı ilə) və malın təqdim edildiyi ünvan kimi məlumatlar əks etdirilir.

“Elektron alış aktı”nın nümunəvi forması və Qaydalar ilə aşağıdakı linkdən istifadə etməklə tanış olmaq olar:

http://e-qanun.az/framework/45372